mr.fix Yapı Kimyasalları

# mr.Seal Silan®

## Xarici səthlər üçün şəffaf su itələyici emprenye materialı

## Məhsul kodu: 75.05.001




### Məhsul haqqında

**mr.Seal Silan®** silan siloksan əsaslı, tikinti elementlərinin səthlərinə emprenye edilərək su itələyici xüsusiyyət qazandıran, şəffaf materialıdır.

### İstifadə sahələri

- Xarici yer örtükləməsində
- Beton, mərmər, qranit, yastı daş kimi az əmici olan səthlərdə
- Kərpic, rəngli briket, qazbeton, traverten kimi əmici olan səthlərdə
- Tarixi abidələrin atmosfer təsirlərinə qaşı qorunmasında istifadə olunur

### Texniki göstəriciləri

| Materialın tərkibi | Tərkibində silan siloksan əsaslı solvent var |
|---|---|
| Rəngi | Şəffaf |
| Tətbiq olunacaq səthin istiliyi | +5$^{0}$C +25$^{0}$C |
| Xidmət istiliyi | -20$^{0}$C +80$^{0}$C |
| Sıxlığı | 0,78 kq/litr |
| Quruma müddəti | 24 saat |

Yuxarıdakı qiymətlər +23$^{0}$C və 50% nəmlik üçün verilmişdir. Yüksək temperatur müddəti qısaldır, aşağı temperatur müddəti uzadır.

### Üstünlükləri

- Yüksək nüfuz etmə xüsusiyyətinə sahib, rəngsiz, şəffaf emprenye materialıdır
- Xarici səth örtükləməsinin görüntüsünü dəyişdirmədən və film təbəqəsi meydana gətirmədən qorunmasına yarayır.
- Tikinti elementlərinin səthlərinin keçirmə qabiliyyətini yox edərək atmosferin yaradacağı neqativ təsirləri azaldır
- Alkalillərə və UB şüalara qarşı davamlıdır
- Buxarı keçirmə qabiliyyətinə malikdir
- Tikinti elementlərinin quru qalmasını təmin edərək, istilik itkilərini və isinmə xərclərini azaldır
- Tərkibində solvent vardır

### İstifadə təlimatı

Səthin hazırlanması;

Tətbiq səthinin möhkəm, quru, təmiz, tozsuz və daşıyıcı olmasına diqqət edilməlidir. Səth, yapışmanı zəifldəcək bütün pas, qatı sürtgü yağı və parafin qalıqlarından təmizlənməli və səthdə artıq qırıntılar olmamalıdır. mr.Seal Silan® ilk qat tətbiqlərində, maksimum penetrasyon əldə etmək üçün quru səthlərə uyğun rulon, fırça və ya püskertmə aparatı ilə tətbiq olunmalıdır. Təxminən 4 saat sonra ikinci qat çəkilməlidir. Maksimum qorumanı təmin etmək üçün, çox məsaməli səthlərdə üçüncü qatda çəkilə bilər.

### Hazırlanması

mr.Seal Silan® istifadəyə hazırdır. Heç bir şəkildə su əlavə edilməməlidir.

### Sərfiyyat

Səth əmiciliyinə və hamar olmama xüsusiyyət-

| Tətbiq olunma sayı | 1. qat | 2.qat |
|---|---|---|
| 2 qat | 0,40 litr/m$^{2}$ | 0,25 litr/m$^{2}$ |

inə görə sərfiyyatlar dəyişə bilər.

### Alətlərinin təmizlənməsi

İstifadə edilən alət və ləvazimatlar uyğun solvent ilə təmizlənməlidir.

### Saxlama şərtləri

Açılmamış orijinal qablaşdırmada, sərin və quru yerdə, donmadan qorunaraq saxlanmalıdır.

## Saxlama müddəti

Düzgün saxlama şəraitində, istehsal tarixindən etibarən 1 il müddətində istifadəyə yararlıdır.

## Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Məhlul dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik

Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalar və/və ya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

**Net: 5 kq ±2%**